*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 sentyabr 2020-ci il № 54 (2472) Qiymәti 30 qəpik

# Prezident İlham Əliyev: COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır

*Avqustun 31-də Fövqəladə Hallar Nazirliyinin Tibb Mərkəzinin koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli növbəti hospitalının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev hospitalın açılışında videoformatda iştirak edib. Tibb müəssisəsinin kollektivi ilə videoformatda görüşən dövlətimizin başçısı çıxış etdi.*



- Bu gün ölkəmizdə yeni böyük xəstəxana açılır. Bu münasibətlə sizi təbrik edirəm. İyul ayının əvvəlində həmin ərazidə birinci xəstəxananın açılışı qeyd edilmişdi. Bu açılışda mən iştirak etmişəm. O xəstəxanada çarpayıların sayı 800-dən çoxdur. Bu, ölkəmizin ən böyük xəstəxanalarından biridir. Artıq bu xəstəxanalarda COVID xəstələri müalicə alır. O gün göstəriş verdim ki, avqustun sonuna qədər həmin ərazidə daha bir xəstəxana tikilsin. Bu gün avqustun 31-də biz buna nail ola bilmişik.

Bu gün açılan xəstəxanada 820-dən çox çarpayı mövcuddur. Ancaq qısa müddət ərzində biz bu çarpayıların sayını 1500-ə qədər artıra bilərik. Bu xəstəxananın xüsusi özəlliyi ondan ibarətdir ki, burada 130 intensiv terapiya-reanimasiya yeri vardır. Əminəm ki, bu gün açılan xəstəxananın fəaliyyəti COVID-19 ilə apardığımız mübarizədə çox önəmli rol oynayacaq.

Bildirməliyəm ki, pandemiya dövründə ölkəmizdə yeni xəstəxanaların tikintisi geniş vüsət almışdır. Bu məqsədlər üçün böyük vəsait ayrılmışdır, bütün imkanlar səfərbər edilmişdir. Çünki mövcud çarpayı fondu imkan vermirdi ki, biz bu dəhşətli pandemiya ilə uğurla mübarizə aparaq. Cəmi altı ay ərzində ölkəmizin çarpayı fondu böyük dərəcədə artırılmışdır. Ölkəmizin ən gözəl və ən müasir xəstəxanası - Yeni Klinika açılmışdır. Yeni Klinikada çarpayıların sayı 600-ə yaxındır. Hazırda təqribən 400-ə yaxın çarpayı hazır vəziyyətdədir. Bununla bərabər, modul tipli 11 xəstəxana inşa edilmişdir. Bu xəstəxanalarda çarpayıların sayı 4100 səviyyəsindədir.

Onu da bildirməliyəm ki, modul tipli 7 xəstəxananın tikintisi nəzərdə tutulub. Amma hazırda buna ehtiyac yoxdur. Çünki ölkəmizdə xəstələrin sayı azalır və əgər ehtiyac yaranarsa, qısa müddət ərzində əlavə 1400 çarpayılıq xəstəxanalar inşa oluna bilər. Ehtiyat variantı kimi biz ölkəmizin iki Olimpiya Kompleksini də xəstəxanalara çevirdik və orada da 300-dən 500-ə qədər xəstə müalicə ala bilər.

Bütün bunlar bir daha onu göstərir ki, COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır, qəbul edilmiş qərarlar vaxtında və yüksək keyfiyyətlə icra edilir. Bu və digər amillər imkan verdi ki, biz vəziyyəti nəzarət altında saxlayaq. Bildirməliyəm ki, hazırda COVID xəstələri üçün 46 xəstəxana fəaliyyət göstərir. Onu da bildirməliyəm ki, bu xəstəxanaların 41-i son 17 il ərzində inşa edilmişdir. Məhz regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası nəticəsində bütün bölgələrimizdə, bütün şəhərlərimizdə müasir tibb ocaqları yaradılıb. Təsəvvür etmək çətin deyil ki, əgər biz vaxtında bu addımı atmasaydıq, bu gün hansı problemlərlə üz-üzə qala bilərdik. Tam məsuliyyətlə deyə bilərəm ki, əgər vaxtında bu xəstəxanalar tikilməsəydi, bu gün biz çox ağır vəziyyətə düşə bilərdik. Nəinki xəstəxanalar tikilib, ən müasir avadanlıqlarla təchiz olunub və bu gün də bu proses davam etdirilir.

COVID ilə mübarizədə bizim səhiyyə sistemimizin maddi-texniki bazası xüsusi rol oynayır. Bununla bərabər, laboratoriyaların sayını böyük dərəcədə - bir neçə dəfə artırmışıq. Pandemiya başlayanda bizim cəmi 6 laboratoriyamız var idi. Bu gün biz o laboratoriyaların sayını 45-ə çatdırırıq. Ölkəmizdə 900 mindən çox test keçirilibdir. Adambaşına düşən testlərin sayına görə Azərbaycan dünya miqyasında qabaqcıl yerlərdədir. Bu da təbiidir, nə qədər çox test keçirirsən, o qədər də çox yoluxma halları aşkarlanır. Bizim əsas məqsədimiz və vəzifəmiz məhz bundan ibarətdir ki, bütün yoluxanlar müayinədən keçirilsin və onlara vaxtında tibbi xidmət göstərilsin.

Bildirməliyəm ki, pandemiya ilə əlaqədar Azərbaycan həkimlərinə xüsusi diqqət göstərilir. Səhiyyə sistemində çalışan insanlar prinsip etibarilə daim dövlət tərəfindən qayğı ilə əhatə olunur. Tikilmiş xəstəxanalar həkimlərin iş yeridir. Həkimlərin həm iş yerlərinin müasirləşdirilməsi, eyni zamanda, onların maliyyə vəziyyətinin yaxşılaşdırılması daim diqqət mərkəzində olub. Pandemiya dövründə bu diqqət daha da genişmiqyaslı olub. Təkcə onu demək kifayətdir ki, COVID xəstələrinə xidmət edən həkimlərin əməkhaqqı 3-5 misli artırılıb. Ancaq burada əsas problem həkimlərin sayındadır. Çünki heç bir ölkə bu pandemiyaya hazır deyildi. Heç kimin ağlına gələ bilməzdi ki, dünya belə bir bəla ilə üzləşəcək. Bizdə və eləcə də bütün başqa ölkələrdə həkimlərin sayı normal həyat rejiminə hesablanıb. Ona görə, əlavə həkimlərin Azərbaycana dəvət edilməsi gündəlikdə duran məsələlərdən biri idi. Hesab edirəm ki, biz operativ və səmərəli addımlar nəticəsində bu sahədə də məsələni həll etdik. Azərbaycana beş ölkədən - Türkiyədən, Rusiyadan, Çindən, İtaliyadan, Kubadan həkim briqadaları gəlmişdir və bu həkimlər bizə kömək göstərirlər.

Bir sözlə, görülən bütün bu işlər öz səmərəsini verir. Təsadüfi deyil ki, son həftələr ərzində COVID ilə mübarizədə vəziyyət daha müsbətdir. Biz müsbət dinamikanı görürük və ümid edirəm ki, bu dinamika bundan sonra da qorunub saxlanılacaqdır.

Biz Ümumdünya Səhiyyə Təşkilatı ilə ilk günlərdən sıx təmasda idik. Bu gün də bu təmaslar davam edir. Bildiyiniz kimi, Ümumdünya Səhiyyə Təşkilatı Azərbaycanda bu sahədə görülən işlərə çox yüksək qiymət vermişdir və Azərbaycanı nümunəvi ölkə adlandırmışdır. Bu, həqiqətən də belədir. Yəni, görülmüş işlər, bu sahəyə ayrılan dövlət vəsaiti, səfərbərlik işləri, xəstəxanaların, laboratoriyaların inşası, sosial proqramların həyata keçirilməsi - bütün bunlar, əminəm ki, bizim mübarizədə əsas rol oynamışdır. Ona görə bu gün də bu təmaslar davam edir və əminəm ki, biz birgə səylərlə bu məsələnin - COVID-in nəzarətdə saxlanmasını təmin edəcəyik. Onu da bildirməliyəm ki, Azərbaycan məsuliyyətli və beynəlxalq müstəvidə böyük nüfuz qazanmış ölkə kimi, digər ölkələrə də humanitar yardım göstərib. Artıq Azərbaycan 30-dan çox ölkəyə humanitar yardım göstərib və bu, bizim ümumi mübarizəyə verdiyimiz böyük töhfədir.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev: COVID ilə mübarizədə Azərbaycan çox uğurlu fəaliyyət aparır



(Əvvəli 1-ci səhifədə)

Təbii ki, pandemiya həm ölkə iqtisadiyyatına, həm də insanların sosial vəziyyətinə mənfi təsir göstərmişdir. Bu təsirin fəsadlarını azaltmaq üçün praktiki addımlar atılır. Beş milyona yaxın insan geniş sosial paketlə əhatə olunub. Həm dövlət sektorunda, həm özəl sektorda işləyənlər, eyni zamanda, işsizlər, o cümlədən qeyri-formal formada işləyənlər, aztəminatlı təbəqəyə aid olan insanlar - bütün kateqoriyadan olan insanlar dövlət tərəfindən maddi dəstəklə təmin edilib. Bu, bir daha onu göstərir ki, insanların rifahı, onların sosial vəziyyəti və əlbəttə ki, sağlamlığı bizim üçün əsas məsələdir.

Mən bunu bəri başdan - pandemiyanın ilk günlərindən demişdim ki, insanların sağlamlığı bizim üçün prioritet məsələdir və biz bütün səylərimizi bu məsələnin həllinə istiqamətləndirdik. Təbii ki, belə olan halda iqtisadi sahədə çətinliklər də labüd idi. Ancaq hesab edirəm ki, başqa ölkələrlə müqayisədə Azərbaycanda iqtisadi sahədə də vəziyyət daha yaxşıdır. Biz yaxşı bilirik ki, bəzi inkişaf etmiş ölkələrdə pandemiya dövründə iqtisadi tənəzzül 10, 15, 20, 25 faiz səviyyəsindədir. O cümlədən Avropanın inkişaf etmiş ölkələrində yüksək səviyyədədir. Ölkəmizdə isə görülmüş tədbirlər nəticəsində 7 ayda iqtisadiyyat cəmi 2,8 faiz aşağı düşüb. Hesab edirəm ki, dünyada mövcud olan ümumi mənzərəni nəzərə alsaq bu, yaxşı göstəricidir.

Ancaq əlbəttə ki, biz postpandemiya dövrünə də hazır olmalıyıq və müvafiq göstərişlər verilibdir. Postpandemiya dövrü nə vaxt başlayacaq, bunu hələ ki, heç kim deyə bilmir. Ancaq dünyada gedən araşdırmalar, tədqiqatlar, peyvəndlərin üzərində işin aparılması ümidverici siqnallar verir. Onu da bildirməliyəm ki, biz hazırda bir neçə şirkətlə COVID-ə qarşı peyvəndin ölkəmizə gətirilməsi ilə əlaqədar fəal iş aparırıq. Mən ümid edirəm ki, Azərbaycan bu sahədə də peyvəndi əldə edən birinci ölkələr sırasında olacaqdır. Çünki biz artıq bir müddətdir ki, bu məsələ ilə əlaqədar çox fəal iş aparırıq. Ancaq burada əsas şərt bu peyvəndin bütün sınaq mərhələlərindən keçməsidir. Həkimlər yaxşı bilirlər ki, istənilən yeni peyvənd bir neçə mərhələdən keçir və yalnız ondan sonra bazara çıxarılır, insanların vaksinasiyası üçün istifadə olunur. Ona görə bütün mərhələlər, şirkətlərin apardığı bütün araşdırmalar öz nəticəsini verəndən, bütün sınaq testləri və beynəlxalq sertifikatlaşdırma aparılandan sonra biz bu peyvəndi ölkəmizə gətirəcəyik və ümid edirəm, ondan sonra demək olacaq ki, bu dəhşətli vəziyyət arxada qalıb. Hesab edirəm ki, biz o vaxta qədər öz addımlarımızı mövcud vəziyyətə uyğun atmalıyıq. İlk günlərdən biz bunu etmişik. Bu altı ay ərzində məhdudlaşdırıcı tədbirlərin sərtləşdirilməsi, eyni zamanda, yumşalma addımları atılmışdır və təqribən iyul ayının ortalarından başlayaraq müsbət dinamika artıq özünü büruzə verdi. Belə olan halda, əlbəttə ki, biz yumşalma addımlarımıza da başladıq və təkcə avqust ayında yumşalma tədbirlərinin sayı 3-ə çatmışdır. Əgər müsbət dinamika davam edərsə və xəstələrin sayında artım olmazsa, onda əminəm ki, bundan sonra da yumşalma tədbirləri görüləcəkdir. Çünki hazırda ölkəmizdə hər gün 100-dən 200-ə qədər insan yoluxur və əvvəlki aylarla müqayisədə bu, əlbəttə ki, daha yaxşı nəticədir. Ancaq vəziyyəti daim nəzarət altında saxlamaq üçün həm gündəlik monitorinq aparılır və aparılacaqdır, eyni zamanda, yumşalma addımları elə atılmalıdır ki, xəstələrin sayı kəskin artmasın. Bu, əsas məsələdir və biz burada, əlbəttə ki, öz addımlarımızı çox ehtiyatla atacağıq. Bununla bərabər olaraq, artıq fəal açılışlara gedən ölkələrin təcrübəsinə də nəzər salacağıq. Çünki hazırda bir neçə ölkə artıq öz sərhədlərini və bir çox obyektlərini açıbdır, turistləri qəbul etməyə başlayıbdır. Ancaq biz həmin ölkələrdə nəyi görürük? Onu görürük ki, orada xəstələrin sayı kəskin artıb. O cümlədən inkişaf etmiş Avropa ölkələrinin təcrübəsinə baxsaq görərik ki, avqust ayında xəstələrin sayı ən pik həddə çatıbdır, hətta aprel ayının səviyyəsinə qalxıbdır. Baxmayaraq ki, aprel ayından yay aylarına qədər bütövlükdə dünyada, o cümlədən Avropada xəstələrin sayının azalması müşahidə olunurdu. Yəni, bu, nəyi göstərir, bir daha onu göstərir ki, bu xəstəlik heç də yoxa çıxmayıb. Bu xəstəlik var və belə olan halda dövlət tərəfindən bütün lazımi addımlar atılmalıdır, eyni zamanda, vətəndaşlar da çox sadə qoruyucu metodlardan istifadə etməlidir - məsafə saxlamalıdır, maska taxmalıdır, dezinfeksiya vasitələrindən istifadə etməlidir.

Əlbəttə ki, bəzi Avropa ölkələrində xəstələrin sayında kəskin artım bizi düşündürür və daha ehtiyatlı addımların atılmasına sövq edir. Çünki bir daha demək istəyirəm ki, birinci dərəcəli məsələ insanların sağlamlığıdır. Əgər vətəndaşlarımız bundan sonra da məsuliyyətli olarlarsa, - mən qeyd etməliyəm ki, son müddət ərzində biz bu məsuliyyəti, doğrudan da, görürük, hiss edirik, bu, real nəticələrdə öz əksini tapır, - hesab edirəm ki, qısa müddət ərzində biz normal, adi həyata qayıda bilərik. Amma buna nail olmaq üçün əlbəttə ki, vətəndaşların məsuliyyəti hazırda birinci dərəcəli məsələdir. Çünki dövlət üzərinə nə düşübsə, onu edib - qeyd etdiyim addımlar, ayrılan vəsait. Hətta baxmayaraq ki, dünyada neftin qiyməti hələ də aşağı səviyyədədir və iqtisadi sahədə tənəzzül var, biz büdcəmizi artırmışıq. Büdcəmizə əlavələr edildi, büdcə dürüstləşməsi aparıldı və bunun əsas məqsədi pandemiyaya qarşı mübarizədə daha da səmərəli addımların atılması və vətəndaşların sosial müdafiəsinin təmin edilməsidir.

Birmənalı şəkildə deyə bilərəm ki, Azərbaycanda tətbiq olunan qaydalar, vəziyyətə uyğun şəkildə atılan addımlar və karantin rejimi öz səmərəsini verir. Bunun nəticəsində artıq bir çox şəhərlərdə bütün karantin məhdudiyyətləri aradan qaldırılıb. Ancaq böyük şəhərlərdə bu qalıbdır və bizim hamımızdan asılıdır ki, daha da inamla və daha da qısa müddət ərzində əlavə yumşalma addımları ataq.

Əfsuslar olsun ki, bu gün hələ də bu vəziyyəti dərk etməyənlər, məsuliyyətini itirmiş insanlar da mövcuddur və qaydaların kobudcasına pozulması halları da vardır. Belə hallar aşkarlananda təbii ki, cəza tədbirləri də mütləq olmalıdır və tətbiq edilir. Cəza tədbirləri bütün kateqoriyalardan olan insanlara tətbiq edilir. Heç bir ayrı-seçkiliyə yol verilməməlidir və verilmir. İctimai vəziyyətinə, ictimai statusuna baxmayaraq qanun qarşısında hamı bərabərdir. Azərbaycanda bərabərlik, ədalət və qanunun aliliyi əsas prinsiplərdən biridir və mən bütün vətəndaşları məsuliyyətə çağırıram. Birincisi, özlərini, öz yaxınlarını qorumaq üçün daha məsuliyyətli olmalıdırlar, digər tərəfdən qaydaları pozanlar, böyük kütləvi tədbirlər təşkil edənlər və beləliklə, ölkə qanunları ilə və mövcud olan qaydalarla nümayişkaranə hesablaşmayanlar mütləq öz cəzasını alacaq və alır. İctimaiyyət də bu məsələ ilə bağlı məlumatlandırılır. Hesab edirəm ki, Azərbaycan vətəndaşları yaxşı görürlər ki, qanun hər kəs üçün qanundur. Heç kim qanundan üstün ola bilməz, heç kimdə heç bir imtiyaz ola bilməz və heç kimə heç bir güzəşt edilmir və edilməyəcək.

Mən bir daha demək istəyirəm ki, görülmüş bütün işlər bir məqsədi güdür ki, biz bu vəziyyətdən az itkilərlə çıxaq. Hesab edirəm ki, biz buna nail oluruq. Hər şey müqayisə ilə ölçülür. COVİD-lə bağlı dünya statistikasına baxdıqda görürük ki, ölkəmizdə əldə edilmiş nəticələr doğrudan da çox təsirlidir, çox dəyərlidir. Mən hesab edirəm ki, biz məhz bu tədbirlər nəticəsində minlərlə insanın həyatını qoruduq. Qoymadıq ki, xəstəlik geniş vüsət alsın, qoymadıq ki, bu, nəzarətdən çıxsın və bundan sonra da bunu edəcəyik. Nə qədər lazımdırsa, o qədər də edəcəyik. Əminəm ki, birgə səylər nəticəsində, həm də bundan sonra dövlətin qətiyyətli və düşünülmüş ədaləti addımları, vətəndaşların məsuliyyəti imkan verəcək ki, biz bu ağır vəziyyətdən az itkilərlə çıxaq və daha tez bir zamanda normal, adi həyata qayıdaq.

Mən sizi bir daha bu böyük xəstəxananın açılışı münasibətilə təbrik etmək istəyirəm, həkimlərə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.

**AZƏRTAC-ın materialları əsasında**

# Azərbaycan tankçıları "Tank biatlonu" müsabiqəsində yarımfinal mərhələsinə yüksəlib



*"Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən tankçılarımız yarışların növbəti günündə "Fərdi sürücülük" mərhələsində iştirak ediblər.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan tankçıları yer aldıqları qrupda Çin, Belarus və Serbiya tankçıları ilə yarışlarda fərdi ustalıqlarını nümayiş etdiriblər.

Tankçılarımız müsabiqənin şərtlərinə əsasən sərrast atəşlə 3 hədəfi məhv edib və marşrut üzrə müəyyən edilmiş məsafəni qısa müddətdə keçərək yarımfinal mərhələsinə yüksəliblər.

*Ön xətdən reportaj*

# Sən düşməni məhv edəcəksən, Azərbaycan əsgəri!

*Qarşıdakı mövqelərə getmək üçün yolumuz yaşıllıqların arasından keçir. Hiss edirəm ki, ən böyük rəssam olan ana təbiət fırçasını bu yerlərə xəsislik etmədən çəkib. Sanki sirli-sehirli bir aləmə, gözəlliklər qoynuna düşmüşük. Bizimlə üz-üzə, göz-gözə gələn gözəlliklər qəlbimizi oxşayır, könlümüzə sığal çəkir. Belə gözəl bir məkanda xidmət etmək, yurdu düşməndən qorumağın özü də zabitə, əsgərə böyük ruh yüksəkliyi verir, onları uğura, qələbəyə ruhlandırır.*



Avtomobil irəli şütüdükcə zövq verən gözəlliklər arxada qalır. Yavaş-yavaş ön xətdə yerləşən mövqelərimizə yaxınlaşırıq. Sərt döngədən sonra qarşımızda geniş bir meydan açılır. Mövqelərə gedən yollar, cığırlar buradan başlayır. İstər-istəməz yüksək ovqata köklənirik. Düşünürəm ki, bu yerlər qəhrəmanların, cəsurların - torpaqlarımızı qoruyan hərbçilərimizin məskənidir. Hamımız üçün müqəddəs məskəndir, doğma məkandır.

İlk həmsöhbətimiz leytenant Cavid Hüseynov olur. Gənc zabit bildirir ki, əsgərlərimiz üzərlərinə düşən xidməti tapşırıqlarını yüksək bacarıq və peşəkarlıqla yerinə yetirirlər. "Onlar daim müşahidələr aparır, düşmən mövqelərini nəzarətdə saxlayırlar. Erməni qəsbkarları atəşkəs rejimini pozmağa cəhd göstərəndə isə dəqiq atəş zərbələri ilə onları susdururlar. Şəxsi heyətin təkcə peşəkarlığı deyil, döyüş və mənəvi-psixoloji hazırlığı da yüksək səviyyədədir. Əsgərlərimiz keşiyində dayandıqları Vətən torpaqlarına ürəkdən bağlıdırlar. Onlar yurdumuzun hər qarışı uğrunda döyüşə, düşməni məğlub etməyə hər an hazırdırlar. Burada xidmət etdiyim müddətdə dəfələrlə əsgərlərimizin igidliyinin, qəhrəmanlığının şahidi olmuşam. Belə vətənpərvər əsgərlərin komandiri olmaq çox xoşdur. Bu gün sıralarımızda xidmət edən əsgərlər sələflərinin döyüş ənənələrini uğurla davam etdirirlər. Ürəyi Vətən eşqi ilə döyünən oğullarımızın çoxu əsgəri xidmətini başa vurandan sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi ordumuzda qalıb müqəddəs borclarını yerinə yetirirlər. Hər addımda hiss edirəm ki, əsgərlərimiz el-obaya ürəkdən bağlıdırlar. Onlar ərazi bütövlüyümüz və müstəqilliyimiz uğrunda hər an döyüşməyə hazırdırlar. Şəxsi heyət Vətənini, torpağını çox sevir, onu düşməndən qoruyur. Qoruyur ki, yurda yağı ayağı dəyməsin, el-obamız yağmalanmasın. Bu da təbiidir. Çünki qoynunda dünyaya göz açdığımız torpaqları qorumaq hər birimizin müqəddəs borcudur. Vətən əsgərindir, əsgər də Vətənin. Vətən əsgərsiz, əsgər də Vətənsiz yaşaya bilməz. Deməli, onlar bir-birindən ayrılmazdır, bölünməzdir. Bu gün ordu sıralarına xidmətə gələn gənclər çox vətənpərvərdirlər. Bu onu göstərir ki, onlar kiçik yaşlarından özlərini əsgəri xidmətə hazırlayırlar. Təbiidir ki, vətənpərvərlik hissi yüksək olan əsgəri döyüşlərdə uğurlar gözləyir. Təlimlərdə qazanılan uğurlar isə hamımızı sevindirir. Mən zabit kimi əsgərlərimin döyüş hazırlığından, bacarığından çox razıyam. Əgər onlar qəflətən düşmən hücumunun qarşısını almaq üçün savaşa atılsalar, inanıram ki, qısa müddət ərzində düşmən üzərində qələbə qazanacaqlar. Çünki şəxsi heyətin döyüş hazırlığı yüksək səviyyədədir. İnanırıq ki, qarşıdakı döyüşlərdə Vətənə əsgər olan oğullarımızı yalnız və yalnız qələbə gözləyir."

Qarşı tərəfi müşahidə edən əsgər Nicat Babayev ordu sıralarına Xəzər rayonundan çağırılıb. Hərbi xidmətə çağırılanadək Xəzərin sahillərinin gözəlliklərini çox seyr edib. Artıq o günlər arxada qalıb. İndi isə əsgər N.Babayev bu gözəl məkanda xidmət edir, yurdumuzu erməni qəsbkarlarından qoruyur. Bu gün Vətənə əsgər olan Nicat Babayevin ürəyi sevinclə doludur. O, bizimlə söhbətə Azərbaycan Ordusu haqqındakı xoş təəssüratları ilə başlayır. Ordumuza olan sevgi və məhəbbətindən danışır. Əsgər böyük fərəhlə söhbətə cığır salaraq deyir ki, xidmətə çağırılanadək ordumuzu bu cür güclü və qüdrətli təsəvvür etmirdi. "Xidmətə başlayandan sonra hər şeyi öz gözlərimlə gördüm, təsəvvürüm tamam dəyişdi. Sıralarında xidmət etdiyim ordumuzun gücünü, qüdrətini yaxından görəndə sevinc hisslərini keçirdim. Bu gün xidmətimi ön xətdə yerinə yetirməyimdən qürur duyuram. Müşahidə məntəqəsindən işğalda olan torpaqlarımıza baxanda, dağıdılmış evləri, viran qalmış yurd yerlərimizi görəndə ürəyim düşmənə qarşı nifrətlə dolur. Fikirləşirəm ki, ermənilərin işğal etdikləri kəndlərin, şəhərlərin sakinləri illərdir doğma ocaqlarının həsrəti ilə yaşayırlar. Bu həsrətə, bu ayrılığa Azərbaycan əsgəri döyüşlərdə qazanacağı uğurları və qələbələri ilə son qoyacaq. İnsanlar doğma ocaqlarına qayıtmalıdırlar. Ordumuz erməni ordusundan qat-qat güclü və qüdrətlidir. Zabit və əsgərlərimiz hərbi texnikanın və silahların xüsusiyyətlərini mükəmməl bilirlər. Ona görə də inamla demək olar ki, döyüşlərdə biz mütləq erməniləri məğlub edəcək, onları torpaqlarımızdan qovacaq, xalqımızı qələbə xəbərimizlə sevindirəcəyik".





- Tovuz rayonu ətrafında gedən döyüşlər həm ordumuzun gücünü, həm də xalqın Azərbaycan Ordusuna olan sevgisini və inamını göstərdi, - deyə əsgər Kərəm Kazımov söhbətimizə qoşulur. - Erməni qəsbkarları xəyal edirdilər ki, qəfil hücumla mövqelərimizi ələ keçirib, döyüşlərdə uğur qazanacaqlar. Amma hər şey tərsinə oldu. Gündən-günə güclənən ordumuzun bölmələri cəsarət və hünərləri ilə işğalçıların hücumlarının qarşısını qətiyyətlə aldılar. Qısa müddət ərzində ermənilər ağır itki verərək geri çəkildilər. Xalqımız ordusunun, zabitinin, əsgərinin gücünü bir daha gördü. Gördü ki, ordumuz erməni qəsbkarlarını məğlub etmək, işğalda olan torpaqlarımızı azad etmək gücündədir. Əsgərlərimizin döyüş hazırlığının yüksək olması, düşmənə tutarlı cavab verməsi xalqın ordusuna olan inamını daha da artırdı. Ermənilər gücümüzün yenilməzliyini, qüdrətimizin qətiyyətini gördülər. Həmin günlərdə erməni qəsbkarları fəallaşıb təxribat törətməyə çalışsalar da, şəxsi heyətimiz dəqiq atəş zərbələri ilə işğalçıları susdurdu. Yurdumuzun keşiyində dayanmaqdan qürur duyuram. Fəxr edirəm ki, Vətənin əsgəriyəm, əldə silah torpaqlarımızın keşiyində dayanmışam.

Bu yaxınlarda məzuniyyətə getmişdim. Dost-tanışlarım xidmətimlə yaxından maraqlanırdılar. Mən də onlara keçdiyimiz təlim-məşqlərdən, öyrəndiyim silahlardan, ordumuzun yenilməz gücündən, xidmətimin maraqlı anlarından həvəslə danışdım. Xidmətimiz o qədər məsuliyyətlidir ki, vaxtın necə keçdiyini hiss etmirik. Asudə vaxtlarımızda isə qəzet oxuyur, televiziya kanallarını izləyir, ölkəmizdə gedən quruculuq işləri ilə yaxından tanış oluruq.

Ön xətdə xidmətini yerinə yetirən əsgərlərdən Murad Məcidov, Tunar Hüseynov, Musa Həmzəyev, İsgəndər Babayev və başqaları yurdumuzun keşiyində ayıq-sayıq dayanacaqlarını, erməni qəsbkarlarını məhv edəcəklərini bildirirlər. Belə vətənpərvər, döyüş hazırlığı yüksək olan əsgərlərin sözlərindən ürəyimiz dağa dönür. Əmin oluruq ki, onlar torpaqlarımızı göz bəbəyi kimi qoruyurlar.

Mövqelərdən aşağı düşürük. Bir anlıq leytenant Cavid Hüseynovun sözlərini xatırlayıram. Bir az əvvəl bizimlə söhbətində gənc zabit deyirdi ki, Vətən əsgərindir - əsgər Vətənin. Əsgər Vətənini qoruyur, Vətən də ona sinəsində yaşamaq üçün yer verir. Deməli, Vətənimiz qorunmalıdır ki, yaşamaq üçün əbədi-əzəli məskənimiz olsun. Bunu dərindən dərk edən əsgərlərimiz mövqelərində ayıq-sayıq dayanır, torpaqlarımızı erməni işğalçılarından qoruyurlar. Vətəni qoruyuruq ki, müstəqilliyimiz daimi, əbədi və dönməz olsun.

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Döyüş hazırlığı

# “Atəş hazırlığı döyüş hazırlığının mühüm və ayrılmaz tərkib hissəsidir”

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin atəş hazırlığı məşğələsində iştirak etdik. Zabit Rəşad Əliyev Vətən müdafiəçilərinin döyüş hazırlığından danışaraq dedi ki, təsdiq olunmuş hazırlıq planına əsasən əsgərlərimizlə məşğələlər keçirilir.*

"Günün nizam qaydasına uyğun olaraq, şəxsi heyətlə dərslər keçirilir. Hal-hazırda bölmənin şəxsi heyəti atəş hazırlığı məşğələsinə cəlb olunub. Bu gün igidlərimiz tabeliklərində olan bütün silahların sökülüb-yığılmasını öyrənirlər. Hər biri çalışır ki, ona təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini dərindən öyrənsin, ona düzgün qaydada qulluq göstərsin. Müasir dövrdə döyüş meydanında silahın rolu əvəzsizdir. Silah xüsusi qulluq tələb edir. Hər atışdan sonra silahlar təmizlənməli, silah otağına yerləşdirilməlidir. Nəzərə alsaq ki, biz döyüş mövqeyindəyik, ona ikiqat qulluq göstərilməlidir. Hərbi qulluqçular mütəmadi olaraq döyüş növbəsinə çıxırlar. Bu zaman silah tozlana bilər. Bir sözlə, silaha düzgün qaydada qulluq göstərilməsə, atəş açmaya bilər".



Vətənin keşikçiləri məşğələ rəhbərini diqqətlə dinləyir, hər biri silahı müstəqil şəkildə söküb-yığırlar. Məşğələ bitdikdən sonra şəxsi heyətlə həmsöhbət olmaq imkanı qazandıq.

Əsgər Babək Quluyev düşmənlə üzbəüz dayanmaqdan qürur hissi keçirdiyini qeyd etdi. "Ermənilər bizim əbədi və əzəli düşmənimizdir. Tarixə nəzər salsaq görərik ki, onlar "böyük Ermənistan" dövlətini yaratmaq üçün hər fürsətdən istifadə ediblər. Hər dövrdə onların bu planı puç olub. Azərbaycanın igid və qəhrəman oğulları düşmənin qarşısında sinələrini sipər ediblər. Atam da Qarabağ döyüşlərinin iştirakçısı olub. O mənə Azərbaycan igidlərinin döyüş meydanında göstərdikləri qəhrəmanlıqlar haqqında çox danışıb. Bu gün onların şərəfli yolunu davam etdirmək bizim üzərimizə düşür. Qoy xalqımız nigaran qalmasın. Mübariz, Samid, Raquf, Polad, İlqar kimi qəhrəman oğulların davamçıları Vətənin müdafiəsində dayanıblar. Canımız bahasına da olsa düşmənin bütün təxribatlarının qarşısını alacağıq. Qoymarıq bir qarış torpağımız düşməndə qalsın".

- Atəş hazırlığı döyüş hazırlığının mühüm və ayrılmaz tərkib hissəsidir, - deyə əsgər Şamil Musayev söhbətə başladı. - Atəş hazırlığı zamanı ilk olaraq döyüş meydanında hədəfləri tapmaq üçün ərazilərin müxtəlif maskalanma xüsusiyyətləri öyrədilir. Tapılan hədəflər üç qrupa bölünür: gözlə görünən, işıq və səs. Hədəf kəşf olunan kimi müvafiq komandir tərəfindən onun əhəmiyyəti, xarakteri, yeri, uzaqlığı müəyyənləşdirilir və onun məhv edilməsi üzrə qərar qəbul edilir. Döyüş meydanında hədəflər tək-tək və qrup şəklində hədəflərə bölünür. Atəşin aparılması üçün silah növünün, döyüş sursatının növünün və qaydasının seçilməsi kəşf olunmuş hədəfin xarakterindən, onun yerindən və ona kimi olan məsafədən asılı olur. Bunlar öyrəndiklərimizin sadəcə kiçik bir qismidir. Nəzəri biliklərimizi atışlar və təlimlər zamanı daha da möhkəmləndiririk.



Kiçik çavuş Fərid Əzizov bildirdi ki, Vətənin keşikçilərinin sırasında dayanmaq onun uşaqlıq arzusudur. "Mən dayılarımın Qarabağ müharibəsi haqqında hekayələri ilə böyümüşəm. Onlar Vətənin dar günündə torpaqlarımızın müdafiəsinə qalxan oğullarımızdandır. Dayım ermənilərin dinc əhaliyə qarşı törətdikləri vəhşiliklərdən danışardı. İndi Vətəni qorumaq kimi müqəddəs vəzifə bizə tapşırılıb. Hərbi andımıza sadiq qalaraq son damla qanımıza qədər Vətənimizi qoruyacaq, işğalda olan torpaqlarımızı düşməndən azad edəcəyik. Həmin günə qədər bilik və bacarığımızı daha da təkmilləşdirəcəyik. İnanırıq ki, bizi Böyük Qələbəyə aparacaq gün uzaqda deyil. Tezliklə Ali Baş Komandanımızın döyüş əmri ilə xalqımıza qələbə sevincini yaşadacağıq".

Əsgərlər Mübariz Məmmədovun, Asim Quliyevin, Xəyal Şirinovun və Səhət Həsənovun baxışlarından "Döyüş əmrinə, şəhidlərimizin qisasını almağa hazırıq!", - kəlmələri oxunurdu.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Şəxsi heyət qarşıya qoyulan tapşırıqları layiqincə yerinə yetirməyə hazırdır

*Bu gün Azərbaycan Ordusunun sıralarında xidmət edən hər bir hərbi qulluqçu doğma Vətənini vicdanla qoruyacağına və zabit adını daim uca tutacağına təntənəli şəkildə and içib. Onlar bu andı layiqincə yerinə yetirməyə daim hazırdırlar. Zabitlərimiz də xidməti vəzifələrini uca tutur, onları böyük sevgi ilə icra edirlər.*

"N" hərbi hissəsində belə zabitlərimizdən biri baş leytenant Nizami Əmiraslanovla tanış olduq. Kapitan Məhəmməd Alışov gənc zabit haqqında onu qeyd etdi ki, baş leytenant N.Əmiraslanov ilk günlərdən çalışır ki, öz xidməti ilə seçilsin, əsgər və kiçik komandir heyətinə nümunə olsun. "O, hərbi hissədə vətənpərvər, məsuliyyətli, tələbkar və daim hərbi biliyini artırmağa çalışan zabit kimi tanınır. Tabeliyində olan şəxsi heyətin daim qayğısına qalır və öz köməyini, dəstəyini onlardan əsirgəmir."

Baş leytenant Nizami Əmiraslanov "Əsgərin nizam-intizamlı, vətənpərvər, fiziki bacarıqlı və döyüş qabiliyyətli olması onun özündən asılı olduğu qədər komandirlərindən də asılıdır. Çünki zabit şəxsi heyətə nümunə olmalıdır. Onun hazırlıqlı olması, dərsin keyfiyyəti deməkdir", - deyə söhbətə başladı. - Cəmşid Naxçıvanski adına Hərbi Liseydə və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbində təhsil aldığım 7 il ərzində bizə zabit peşəsinin necə çətin, ancaq şərəfli bir peşə olduğunu öyrədiblər. Zabit kimi şəxsi heyətdən tələb edəcəyimiz hər bir şeyi bizdən tələb edirdilər.



İllərdir təcavüzkar Ermənistan tərəfindən işğal edilən torpaqlarımızı azad etmək istəyi digər hərbçilərimiz kimi Nizamini də hərbi peşəyə gətirib.

- Hələ erkən yaşlarımdan müharibənin nə demək olduğunu gözəl başa düşürdüm. Valideynlərim Qarabağ müharibəsi haqqında danışanda anlayırdım ki, ermənilər nə qədər qəddar və anti-humanistdirlər. Kiçik yaşlarımdan özümə söz vermişdim ki, böyüyəndə hərbçi kimi torpaqlarımızı nankor ermənilərin işğalından azad edəcəyəm. 2008-ci ildə atama Cəmşid Naxçıvanski adına Hərbi Liseyə daxil olmaq istədiyimi bildirdim. Atam və anam fikrimi dəstəklədilər və mənimlə fəxr etdiklərini dedilər. Bu sözləri eşitmək mənim üçün xoş idi. Kiçik yaşlarımdan özümə verdiyim sözü tutdum, hərbçi oldum.

Gənc zabit onu da qeyd etdi ki, Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə hər an xalqımıza qələbə sevinci yaşatmağa hazırdır. "Azərbaycan Ordusu bu gün Qafqazda ən qüdrətli ordudur, dünyada güclü ordular sırasındadır. Bu nailiyyətlərə nail olmaq üçün ordumuz bir əsrlik tarixi yol keçib. Aparılan islahatlar, müasir maddi-texniki təminatla təchiz olunması, rəhbərliyin diqqət və qayğısı nəticəsində ordumuz gündəngünə daha da güclənir və qarşıya qoyulan bütün tapşırıqları layiqincə yerinə yetirməyə hər an hazırdır. Aprel və Günnüt zəfərləri, Tovuz döyüşləri dediklərimizin sübutudur." Zabit fikrini Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sözləri ilə bitirdi: "Azərbaycan güclü dövlətdir, onun güclü ordusu vardır."

Bu gün Vətən torpaqlarının müdafiəsində dayanan gənc zabitə müqəddəs xidmətində uğurlar dilədik, yeni zirvələri fəth etməyi arzuladıq.

**Kursant**
**İbrahim MƏMMƏDBƏYOV**

# Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun 100 illik yubileyi qeyd edilib

*Müdafiə Nazirliyinin tədbirlər planına əsasən, Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun 100 illik yubileyi münasibəti ilə Azərbaycan Ordusunun birlik, birləşmə, hərbi hissə, ideoloji və mədəniyyət mərkəzlərində silsilə tədbirlər həyata keçirilir.*



Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusu Birinci Fəxri xiyabana gedərək qəhrəmanın məzarını ziyarət edib, qarşısına qızılgül çələngi qoyub, qərənfillər düzüb və xatirəsini ehtiramla yad edib.

Xalqımızın qəhrəman sərkərdəsi haqqında "Fırtınalar qoynunda" və "Sonuncu mogikanın xatirələri" kitablarının müəllifi polkovnik Abdulla Qurbani M.Məhərrəmovun çətin və məşəqqətli həyatı, eləcə də şanlı döyüş yolu barədə məlumat verib. İstər xalqımızın ümummilli lideri Heydər Əliyev, istərsə də dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyev tərəfindən onun xatirəsinin həmişə əziz tutulduğunu qeyd edib.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyin rəisi general-mayor Bəkir Orucov Məlik Məhərrəmovun Vətənə, xalqa həsr edilən 84 illik mənalı ömür yolunun bu gün də hər bir Vətən əsgəri üçün örnək olduğunu vurğulayıb. General bildirib ki, hələ ötən əsrin 70-ci illərində istefada olan polkovnik Məlik Məhərrəmov Ulu Öndərimizin yaratdığı o vaxtlar analoqu olmayan ixtisaslaşdırılmış xüsusi orta məktəbin bir müddət rəisi olub və bu gün də haqqında xoş xatirələr söylənilir.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvəllər Veteranları Təşkilatı sədrinin müavini, siyasi elmlər üzrə fəlsəfə doktoru, ehtiyatda olan polkovnik Cəlil Xəlilov ölkəmizin hərb tarixinə, sərkərdələrimizin, qəhrəmanlarımızın, şanlı döyüş ənənələrimizin təbliğinə xüsusi önəm verildiyini, Müdafiə Nazirliyinin şəxsi heyətin bu istiqamətdə tərbiyə olunmasında məqsədyönlü fəaliyyətini xüsusi vurğulayıb.

Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmovun qızı, pedaqoji elmlər namizədi, dosent Leyla Bayramova atasına həm sağlığında, həm də ölümündən sonra göstərilən diqqət və qayğıya görə Azərbaycan Prezidenti İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə öz adından ailə üzvləri adından minnətdarlığını bildirib.

Sonra hərbi hissələrdən birinin klubunda "Həyatda qəhrəmanlığa həmişə yer var" devizi altında yubiley mərasimi keçirilib.

Əməkdar incəsənət xadimi,



Prezidentin fərdi təqaüdçüsü, polkovnik A.Qurbani qəhrəmanın həyat və döyüş yolu barədə tədbir iştirakçılarına ətraflı məlumat verib.

Nəzərə çatdırılıb ki, Məlik Məhərrəmov 1920-ci il avqustun 29-da Zərdab rayonunun Bıçaqçı kəndində anadan olub. O, 1936-cı ildə orada natamam orta təhsilini başa vuraraq, Bakıda Xalq Təsərrüfatı Texnikumunda oxuyub. 1939-cu ildə oranı bitirdikdən sonra isə keçmiş sovet ordusu sıralarına çağırılıb. 1942-ci ildə Rusiyanın Vladimir şəhərində hərbi məktəbi bitirib.

Məlik Məhərrəmov 1941-1945-ci illər müharibəsində Berlinədək şərəfli döyüş yolu keçib. Belorusiya, Ukrayna uğrundakı döyüşlərdə xüsusilə fərqlənib. Onun komandir olduğu bölük 1943-cü ilin payızında Dneprin keçilməsində böyük məharət göstərib. Həmin döyüş əməliyyatına görə Məlik Məhərrəmova və onun bölüyündən 17 nəfərə Sovet İttifaqı Qəhrəmanı adı verilib.

Bildirilib ki, M.Məhərrəmov müharibədən sonra atıcı diviziyada tabor komandiri kimi xidmət edib. O, 1954-cü ildə Frunze adına Hərbi Akademiyanı bitirib, alayın qərargah rəisi vəzifəsində çalışıb.

Diqqətə çatdırılıb ki, M.Məhərrəmov 1966-cı ilə qədər Azərbaycan Respublikasının hərbi komissarlıq sistemində məsul vəzifələrdə xidmət edib, 1966-1973-cü illərdə isə indiki Bakı Dövlət Universitetində hərbi kafedranın rəisi olub. 1973-cü ildə ehtiyata buraxılsa da, universitetdə fəaliyyətini davam etdirib.

Məlik Məhərrəmov müharibə illərində göstərdiyi hərbi məharətə, komandirlik bacarığına və igidliyinə görə o dövrdə ən yüksək qəhrəmanlıq adına - Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. SSRİ-nin bir sıra orden və medalları ilə təltif edilib. 1995-ci ildə yubileyi təntənəli surətdə qeyd edilib və müstəqil respublikamızın "Şöhrət" ordeni ilə təltif olunub.

Polkovnik A.Qurbani qəhrəmanımızla bağlı xatirələrini söyləyib və onun ömrünün son çağlarına kimi ölkəmizdə hərbi vətənpərvərliyin təbliği sahəsində çalışdığını, gənclərin orduya hazırlanmasında, Silahlı Qüvvələrin şəxsi heyətinin mənəvi-psixoloji hazırlığının, döyüş qabiliyyətinin yüksəldilməsində səylərini əsirgəmədiyini minnətdarlıqla yada salıb.

Hərbi qulluqçulardan Zaur Həmidov, Namiq Cavadov, İlkin Qayıbov, Elçin Allahverdiyev, Əli Əsədov və başqaları çıxış edərək Azərbaycan əsgərinin ata və babalarımızın qəhrəmanlıq ənənələrini təkrar etməyə hər an hazır olduqlarını bildiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

*Nümunəvi xidmət*

# “Qələbəyə gedən yol yüksək döyüş hazırlığından keçir”

*Səngər, özünü azərbaycanlı sayan, azərbaycançılıq məfkurəsini həyat tərzinə çevirən hər bir kəsin ömrü boyu heç olmazsa bircə dəfə görmək istədiyi, ziyarətinə can atdığı sirli, müqəddəs bir yerdir. Bu gün Azərbaycan əsgərinin gözlərindəki qələbə ruhunu görmək istəyənlərin, əsgər həyatı, onların məişət şəraiti, komandir-əsgər münasibətləri ilə maraqlananların dəli sevdasıdır. Bəziləri üçün bu həyatı yaxından görmək əfsanə, nağıl... gəlir. Ancaq bəziləri üçün bu həyat müqəddəslik məqamı, əfsanədən, nağıldan uzaq real yaşam tərzidir.*



Səngər həyatı yaşadığına, Vətən torpaqlarının müdafiəsində dayananların sırasında olduğuna görə özünü xoşbəxt sayan oğullarımızdan biri gizir Vüsal İbayevlə ön xətt bölmələrimizdən birində tanış olduq. Öyrəndik ki, gizir Vüsal İbayev artıq bir neçə ildir ki, Azərbaycan Ordusunun sıralarında xidmət edir.

"Gözəldir Vətənim - Azərbaycan. Bu gözəlliyi vəsf edəndə belə, sanki göylərə yüksəlirəm. Vətən nə qədər gözəldirsə, ona xidmət etmək ondan da gözəldir", - deyə gizir Vüsal İbayev söhbətə başladı. - Səngərdən qarşı tərəfə - işğal olunan torpaqlarımıza baxanda, ənginliklərə nəzər yetirəndə, nadir, bənzəri olmayan gözəlliklərə əlin çatmayanda insanın ürəyi sızıldayır. Onunla köksünü doldurmaq da olmur. Bəzən özümə sual verirəm: Bir insanın ən böyük xoşbəxtliyi nədir? Bu suala bəlkə də insanlıq var olandan cavab axtarılır. Hər kəs də öz düşüncəsindən çıxış edərək bu suala cavab verir. Mənim üçün isə ən böyük xoşbəxtlik Ali Baş Komandanımızın əmri ilə torpaqlarımızı azad etmək və qalan ömrümü Azərbaycanın dövlətçiliyi naminə sərf etməkdir.

Hərbi qulluqçu onu da qeyd etdi ki, ölkəmizin son illərdə dinamik inkişafı Silahlı Qüvvələrin büdcəsinin artması və nəticə etibarı ilə ordumuzun gücləlməsi ilə müşayiət olunur. "Son illərdə ordunun döyüş qabiliyyəti daha da yüksəlib, maddi-texniki bazası əhəmiyyətli dərəcədə möhkəmlənib. Bu gün qarşıda dayanan əsas vəzifələrdən biri ən son hərbi texnologiyaların orduya cəlb edilməsidir. Hərbi arsenalımızda belə müasir silahların olması dediklərimizin bariz sübutudur. Aprel döyüşləri zamanı bu silahlar vasitəsilə onlarla düşmən texnikası məhv edilib. Bu da onu sübut edti ki, Azərbaycanda yüksək döyüş qabiliyyətli, hərtərəfli təchiz olunmuş ordunun formalaşdırılması istiqamətində atılan addımlar öz nəticəsini verməkdədir".

"Vətənimizin qorunması, torpaqlarımızın azad edilməsi yüksək səviyyəli döyüş hazırlığı prosesindən keçir", - deyə gizir sözünə davam etdi. - Gərgin zəhmət hesabına qarşıya qoyulan məqsədə nail olmaq mümkündür. Bunun üçün ilboyu döyüş hazırlığı məşğələlərinə, döyüş atışlarına, çöl dərslərinə, təlimlərə qatılırıq. Öyrəndiklərimizin nəticəsində Aprel döyüşlərini, Günnüt zəfərini, Tovuz uğurlarını təkrarlamaq, yeni-yeni nailiyyətlər qazanmaq arzusundayıq. Artıq səngərdən Azərbaycan torpaqlarına baxmaq istəmirik. İstəyirik ki, Laçında, Kəlbəcərdə, Qubadlıda, Zəngilanda Qələbə tonqalı qalayaq, üçrəngli Azərbaycan bayrağını dalğalandıraq. Hər zaman Ali Baş Komandanımızın Qarabağ məsələsində dəmir iradə nümayiş etdirməsi, xalqın qəlbinin orduyla döyünməsi onun şəxsi heyətinə mənəvi ruh verir. Bu mənəvi ruhdur bizi qaranlıqdan işığa doğru aparan. İnanırıq ki, hər qaranlıq gecənin bir işıqlı sabahı var. Azərbaycan Ordusunun sayəsində xalqımızı işıqlı sabahlar gözləyir. İşıqlı sabahlara doğru irəli, Azərbaycan əsgəri!

**Mayor Məhəmməd ƏLİYEV, "Azərbaycan Ordusu", foto çavuş Namiq PƏNAHOVUNDUR**

AZƏRBAYCAN ORDUSU

*Əhmədiyyə Cəbrayılov - 100*

# Fransada avtomobil zavoduna Əhmədiyyə Cəbrayılovun adı verilmişdi...

*İnsan ömür adlı gözəl, şirin, elə o qədər də acı, çətin bir səfərdədi. Bu səfər zamanı insanın yoluna çıxan əngəllər onu sınaqlarla bərkidir. Dözümlülüyün artırır, daha gərgin vəziyyətdə, daha mürəkkəb şəraitdə çalışmağı öyrədir. Kamil insan çətin vəziyyətdə belə çıxış yolunu əsəblə, gərginliklə deyil, səbirlə tapa bilər.*

İkinci Dünya müharibəsində azərbaycanlı döyüşçü Əhmədiyyə Cəbrayılov düşdüyü çətinlikləri dözümüylə, özünə və təmsil etdiyi millətə sayğısıyla, səbriylə yumşalda bildi. Həm də Fransada. Azərbaycandan kilometrlərlə uzaqlarda.

Əsirlikdən qaçmışdı, partizan idi Əhmədiyyə. "Armed Mişel", "Ryus Armed", "Xarqo" və başqa adlarla Fransanın azadlığı uğrunda döyüşlərdə iştirak edib, Fransanın yüksək mükafatları və orden-medalları ilə təltif olunub. İşğalçı alman hakimiyyət orqanları onun başına 10 min alman markası mükafat təyin etmişdilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev əfsanəvi partizan Əhmədiyyə Cəbrayılovun 100 illik yubileyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

Əhmədiyyə Cəbrayılov 1920-ci ilin 22 sentyabrında Şəki rayonunun Oxud kəndində anadan olub. İnsanın xarakteri yeniyetməliyindən formalaşır. Əhmədiyyə heç vaxt həmyaşıdlarından fərqləndiyinin fərqinə varmazdı. Bu, hiss edilməzdi deyə başqaları da bu xarakterin necə püxtələşdiyinə əhəmiyyət verməzdi.

Qorxmazlığı, inadkarlığı, cəsurluğu ilə diqqət çəkən Əhmədiyyə Cəbrayılov Kənd Təsərrüfatı Texnikumunu bitirəndə müharibə başlayır. O, könüllü müharibəyə getmək və cəbhədə kəşfiyyatçı olmaq istədiyini bildirir. Ancaq komandanlıq onu aviasiya məktəbinə göndərir. Hazırlıq bitdikdən sonra bombardmançı-eskadrilyaya təyin olunur.

Əhmədiyyə Cəbrayılovun düşüncə tərzi, həyata baxışı xoşa gələniydi. Düşünürdü ki, düşmənə qalib gəlmək üçün əvvəlcə onun dilini bilməlisən. Bu gərəkli düşüncəylə alman dilini öyrənir.

1942-ci ilin mayında onun əsgəri olduğu batalyon qeyri-mütəşəkkil şəkildə planlaşdırılmış hərbi əməliyyat səbəbindən döyüşdə uğursuzluğa məruz qalır və şəxsi heyətin çox hissəsi məhv olur. Əhmədiyyə Cəbrayılov sağ qalır. Almanlar yaralı azərbaycanlını huşsuz vəziyyətdə Fransadakı Monqoban əsir düşərgəsinə gətirirlər.

1943-cü ildə əsir düşərgəsi komendantının qulluqçusu madam Jannanın köməyi ilə əsirlikdən xilas olur: fransız vətənpərvərləri almanların diqqətini yayındırmaq üçün Əhmədiyyəni tabutda gizlədirlər. Tabutu Jannanın evindəki zirzəmiyə gətirirlər. Sağaldıqdan sonra Əhmədiyyə fransız dilini də öyrənir. Madam Jannanın sayəsində Fransa müqavimət hərəkatının fəalları ilə əlaqə yaradır, kapitan Delplankın (ləqəbi "Düma") rəhbərlik etdiyi eskadronun üzvü olur.

Əhmədiyyə Cəbrayılov komandiri kapitan Delplankın olan Düma Gizli Ordusuna keçirilir. Bir sıra tapşırıqlarla yanaşı, Əhmədiyyə Cəbrayılov dəmir yol xətlərini partladaraq düşmənin minlərlə fransızı Almaniyadakı həbs düşərgələrinə aparmasının qarşısını alır. Həbs düşərgəsinə aparılan 500-ə yaxın fransız uşağını xilas edərkən yaralanır, alman zabiti formasında olduğu üçün bir müddət alman hərbi hospitalında müalicə olunur. Albi şəhərinə hərbi komendant təyin olunan Əhmədiyyə Cəbrayılov bir müddət partizanlara çox əhəmiyyətli məlumatlar ötürür, bütün komendatura zabitlərini əsir götürərək partizanlara təhvil verir. O, körpüləri sıradan çıxarır, alman anbarlarını və faşist zabitlərinin yaşadıqları evləri yandırır. Onun başçılığı altında Lion şəhərinin mərkəzində düşmən tankları yandırılır. Müvəffəqiyyətlə aparılan təhlükəli əməliyyatların müqabilində Fransa Kommunist Partiyasının baş katibi Moris Torez ona tapança bağışlayır.

Düşmənin dilini çox yaxşı bilən azərbaycanlı döyüşçü 4 əməliyyatdan sonra kəşfiyyat qrupunun rəhbəri olur. Xidmətdəki fədakarlığı ilə seçilən Armed Mişel bir ay sonra fransız medalı ilə təltif olunur. Daha sonra ona üzərində Şarl de Qollun öz əli ilə yazdığı qısa mətnli məktub təqdim olunur: "Əzizim Armed Mişel, xidmətinizə görə vuruşan fransız xalqı adından sizə təşəkkür edirəm. Sizin Şarl de Qoll".

Əhmədiyyə Cəbrayılov yalnız uğurlu əməliyyatlarla kifayətlənmir, səlis danışdığı alman dilini tabeliyindəki kəşfiyyatçılara da öyrədir. Azərbaycanlı partizanın konkret hədəfləri vardı. O, tezliklə alman zabiti forması geyinərək alman sənədlərinə xüsusi diqqət ayırmaqla düşmənin arxasında əməliyyat aparmaq planlarını sınaqdan keçirməyə başlayır. Tapşırıqları komandirlərindən alsa da, əməliyyatı özü planlaşdırırdı. Kəşfiyyat komandirinin layiqli xidmətləri nəticəsiz qalmadı. Tezliklə Armed Mişel ilk "Könüllü xidmətə görə Xaç" ordeni ilə təltif edildi. Xidmətlərinə görə Fransa Respublikasının ali hərbi mükafatı - "Dəmir Xaç"la təltif olundu. Bu ordenə layiq görülən həmyerlimiz Fransada hər-



bi paradda ölkə prezidentindən öndə addımlaya bilərdi. SSRİ-də cəmi 2 nəfər bu medalla təltif edilmişdi: Marşal Jukov və Əhmədiyyə Cəbrayılov...

Şarl de Qoll başda olmaqla, Fransa xalqı və dövləti partizan Əhmədiyyə Cəbrayılovun xidmətlərini unutmadı. Fransa hökuməti Dijonda ona kiçik avtomobil zavodu hədiyyə etdi. Üstəlik, Əhmədiyyə Cəbrayılov Fransa prezidenti Şarl de Qollun dəftərxanasında məsul vəzifəyə təyin olundu. Lakin bunlar qəlbi Vətənlə döyünən Əhmədiyyəni qürbətdə saxlamağı bacarmadı. 1951-ci ildə Azərbaycana qayıtmaq qərarına gəldi. Şarl de Qoll ona Fransanın bütün nəqliyyat növlərindən pulsuz istifadə etmək hüququ olan ölkə vətəndaşı şəhadətnaməsini təqdim etdi. On gün sonra isə hərbi olduğu avtomobil zavoduna Armed Mişelin adı verildi.

…Dünyanın ən qəddar diktaturalarından biri sayılan SSRİ-nin xüsusi xidmət orqanları tərəfindən Vətənə qayıdan Əhmədiyyə Cəbrayılova Oxud kəndini tərk etmək qadağan edildi. Bütün mükafatlar, hətta məktublar, fotolar, pulsuz gediş hüququ əlindən alındı. Fransa prezidentinin dostu Oxud kəndində çobanlıq etməyə başladı. Qəddar rejimin rəhbərliyi bir neçə il sonra yumşaldı - keçmiş döyüşçü aqronom təyin olundu.

Əhmədiyyə Cəbrayılov 1963-cü ildə ona mükafat olaraq verilmiş yüz min dolları Sülh Fonduna bağışladı. Yalnız bundan sonra Xruşov onun şəxsi sənədlərinin, mükafatlarının, o cümlədən "Hərbi Xaç" ordeninin qaytarılması barədə göstəriş verdi.

Əhmədiyyə Cəbrayılov illər sonra ona qaytarılan ordeni kəndə gətirib onu səliqəylə köhnə nəsil sandığının içinə qoydu...

1966-cı ildə Sovet İttifaqında rəsmi səfərdə olan Fransa prezidenti general Şarl de Qoll Əhmədiyyə Cəbrayılovla görüşdü. Bu tarixi görüş bir çox qaranlıqları aydınlığa qovuşdurdu...

Bir gün onun kənddəki evinin qarşısında yenidən avtomobillər dayandı. Əhmədiyyə Cəbrayılovu ziyarətə gələn bir vaxtlar tabeliyində döyüşdüyü dostu, Fransanın müdafiə naziri, general idi. O, Fransa prezidentinin rəsmi məktubunu öz silahdaşına verərək bildirdi ki, SSRİ vətəndaşı Əhmədiyyə Mikayıl oğlu Cəbrayılov Fransa hökumətinin hesabına bu ölkəyə dəfələrlə baş çəkmək və orada qalmaq hüququna malikdir. Fransada məşhur olan müharibə qəhrəmanı bu kiçik kənddəki köhnə evində bu ölkənin bütün yüksək hərbi mükafatlarına malik şəxs oldu. O, "Hərbi Xaç", "Könüllü xidmətə görə Xaç", "Fransanın Hərbi Medalı", "Fəxri Legion Ordeni" ilə təltif edildi.

Əhmədiyyə Cəbrayılov 1994-cü ilin 10 oktyabrında avtomobil qəzasında həlak olub. Şəkinin Oxud kəndində dəfn edilib.

Əfsanəvi qəhrəmanın təkrarsız ömür səyahəti başa çatdı...

Onun ölümündən xəbərsiz olan Fransa hökuməti 50 illiyi münasibətilə ona fəxri təqaüd və xatirə medalları göndərir. 1995-ci ilin oktyabrında, ölüm ildönümündə onun qəbri üzərində bürünc heykəli qoyulur. 1998-ci ilin 15 oktyabrında Fransa Müqavimət Hərəkatının könüllü döyüşçüsü Əhmədiyyə Cəbrayılova ölümündən sonra Fransanın azadlığı uğrunda döyüşlərdə iştirakına görə Minnətdarlıq Diplomu verilir…

Xalqımızın böyük filosofu və ədibi M.F.Axundova görə "əsl vətənpərvər o kimsədir ki, Vətənin və millətin mənfəəti və azadiyyəsi üçün cəfakeş ola". Əhmədiyyə Cəbrayılov belə cəfakeşlərdən olub. Belə vətənpərvər, igid atanın oğlu da bu xarakterlə formalaşıbmış; Mikayıl Əhmədiyyə oğlu Cəbrayılov da Dağlıq Qarabağda döyüşlərdə qəhrəmanlar kimi döyüşdü, şəhid oldu. Ona Azərbaycanın Milli Qəhrəmanı adı verildi.

Ata Cəbrayılovun da, oğul Cəbrayılovun da ömür yolu gənclər üçün əsl örnəkdir.

İnsan həyatda bir çox arzularına qovuşa, məqsədinə nail ola bilər. Əgər insan arzularının ardınca getsə, qarşısına qoyduğu məqsədlərinə nail olmaq üçün sonadək əzmlə çalışsa, xəyali bir ömür yaşaya bilər. Bu xəyalilik istək və arzuların aliliyindən asılıdır. Ürəyi Vətəni üçün, onun azadlığı üçün döyünənlər sonrakı nəsillərə təkcə xatirələr deyil, həm də örnəkdir. Əhmədiyyə Cəbrayılov örnək ola biləcək bir ömür yaşadı...

**Baş leytenant Günay TAĞIYEVA, "Azərbaycan Ordusu"**

## Azərbaycan səfiri Misirin nüfuzlu qəzetinə müsahibəsində Ermənistanın işğalçı siyasətini ifşa edib

Misirin nüfuzlu "Akhbarelyom" qəzetində Azərbaycanın bu ölkədəki səfiri Tural Rzayevlə Ermənistanın işğalçı siyasətindən bəhs edən geniş müsahibə dərc olunub.

AZƏRTAC xəbər verir ki, "Ermənistan əvvəlki kimi Dağlıq Qarabağa dair beynəlxalq qərarları yerinə yetirməkdə israr edir" sərlövhəli müsahibədə diplomat Misirdə bəzi turizm şirkətlərinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə turist cəlb etməsi barədə reklamlarını qətiyyətlə pisləyib. O qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin işğal etdiyi bu ərazilər Azərbaycanın beynəlxalq normalarla təsbit edilmiş suveren hüququna əsasən ona məxsusdur. Həmçinin Ermənistan BMT Təhlükəsizlik Şurasının, qurumun Baş Assambleyasının, ATƏT-in, İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının onun silahlı qüvvələrinin işğal etdiyi Dağlıq Qarabağ və ona bitişik yeddi rayondan dərhal və qeyd-şərtsiz çıxarmasını tələb edən qərar və qətnamələrini yerinə yetirməyə borcludur.

T.Rzayev bildirib ki, işğal altındakı Dağlıq Qarabağ bölgəsinə səfər edən hər bir şəxs "arzuolunmaz şəxslər siyahısı"na daxil ediləcək və onun Azərbaycana girişi qadağan olunacaq. Vurğulanıb ki, BMT-nin Ümumdünya Turizm Təşkilatın (ÜTT) İcraiyyə Komitəsinin 2015-ci ilin mayında Xorvatiyada keçirilmiş 100-cü sessiyasında Azərbaycanın təklifi əsasında münaqişə zonalarının turizm istiqamətləri və qanunsuz turizm məqsədləri üçün istifadəsini qadağan edən qərar qəbul olunub. "Məhz bu ədalətli qərar Ermənistana işğal etdiyi Dağlıq Qarabağ ərazisini beynəlxalq turizm yarmarkaları və digər müvafiq tədbirlərdə turizm məqsədilə reklam etməyə imkan verməyib. ÜTT-nin turizmə dair Qlobal Etika Məcəlləsinin müvafiq müddəalarında, habelə Turizm etikası üzrə Sazişində turistlərin təhlükəsizliyi məsələləri vurğulanıb və biz Misirin turizm şirkətlərinə həmin reklamların yerləşdirilməsinin qanunsuz olduğu barədə xəbərdarlıq etmişik", - deyə səfir diqqətə çatdırıb.

Qəzetin müxbirinin Ermənistan-Azərbaycan münaqişəsinin hazırkı vəziyyəti ilə bağlı sualını cavablandıran T.Rzayev qeyd edib ki, son günlər Ermənistan tərəfi işğal etdiyi ərazilərdə qurduğu qondarma rejim vasitəsilə Azərbaycanın qədim Gəncə şəhərinə hücum etməklə hədələyib. Bu, bir daha göstərir ki, Ermənistan münaqişənin sülh yolu ilə həllində maraqlı deyil və ölkəmizə yeni hücumlar üçün bəhanə axtarır. Halbuki, Azərbaycan problemin danışıqlar yolu ilə həllinin tərəfdarıdır və Dağlıq Qarabağdakı erməni icmasını ölkəmizin ərazi bütövlüyü çərçivəsində bölgənin azərbaycanlı icması ilə çiyin-çiyinə, dinc yanaşı yaşamağa çağırır.

# “Dəniz kuboku” müsabiqəsi davam edir



"Beynəlxalq Ordu Oyunları-2020" yarışları çərçivəsində Azərbaycanın ərazi sularında keçirilən "Dəniz kuboku" müsabiqəsi davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müsabiqə dövründə komandalar "Üzən minaya artilleriya atışı", "Kiçik ölçülü dəniz hədəfi üzrə artilleriya atışı" və "Təlim məşq kompleksində suyun daxil olmasına qarşı mübarizə" çalışmaları üzrə bacarıq və vərdişlərini nümayiş etdirərək tapşırıqları icra ediblər.



Keçirilən 3 mərhələnin yekun nəticəsinə görə beynəlxalq hakimlər briqadasının qərarına əsasən, Azərbaycan və Rusiya komandaları bərabər bal toplayıblar.

"Dəniz kuboku" müsabiqəsi sentyabrın 5-dək davam edəcək.

*Məişət*

# “Yeməklər ləzzətli və dadlıdır”

*Dövlət müstəqilliyimizin qarantı güclü ordudur. Müasir dövrdə Azərbaycan Ordusu dünyanın güclü və inkişaf etmiş ordularındandır. Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin göstərdiyi diqqət və qayğı nəticəsində ordumuz gündən-günə güclənir. Yeni hərbi hissələr, obyektlər, infrastrukturlar tikilir.*

"N" hərbi hissəsində gördüklərimiz deməyə əsas verir ki, müasir Azərbaycan Ordusu günün tələbləri əsasında qurulub. Hərbi hissəyə daxil olduqda nahar vaxtı idi. Əsgərlər sıra addımları ilə yeməkxanaya daxil olurdular. Müasir tələblərə cavab verən avadanlıqlarla təmin olunan yeməkxananın girişində hərbi qulluqçuların əl-üz yumaları üçün təyin olunmuş yer, sərin və geniş yemək zalı, mənzərəli fotolar göz oxşayır. İlk olaraq yeməkxananın baş aşpazı çavuş Afaq Məmmədova ilə söhbət apardıq: “Biz yeməkləri ən son və müasir avadanlıqlarla bişiririk. Yeməklər təzə və yüksək kalorili ərzaqlardan hazırlanır. Vaxtlı-vaxtında yeməkxana dezinfeksiya olunur. Əsgərlərə öz balalarımız kimi qayğı göstəririk. Hazırladığım yeməklərə ana nəvazişi, ana sevgisi də əlavə edirik. Onlar da yeməklərdən razı olduqlarını bildirirlər. Biz onları öz övladlarımızdan ayırmırıq. Hər birimiz qürur duyuruq ki, Vətən keşikçilərinə xidmət edirik”.

Yeməkxananın baş aşpazı bugünkü naharın menyusunu xatırlatmağı da unutmadı. Naharda əsgərlərə salat, küftə, qarabaşaq, düyü, qiymə, fəslə uyğun meyvə və meyvə şirəsi veriləcəyini bildirdi.



İmkan tapıb əsgər Məhəmməd Cabbarovla da söhbət apardıq. Əsgər carı ildə Azərbaycan Memarlıq və İnşaat Universitetini bitirdikdən sonra hərbi xidmətə çağırılıb, nümunəvi xidmət edir. O, yeməklərdən razı olduğunu bildirdi: "Əsgər yeməkxanasında bişirilən yeməklər çox ləzzətli və dadlıdır. Gündəlik tələbatı ödəyən kalorili yeməklər bizi daha da güclü edir. Nahar zalı sərin, yeməklərimiz isə isti olur".

Hərbi hissədə əsgərlər üçün yaradılan sosial-məişət şəraiti yüksək səviyyədə təşkil olunub. Onlara göstərilən diqqət və qayğı sonsuzdur. Vətən üçün, millət üçün xidmət edən hərbi qulluqçularımız belə bir hərbi hissənin, şəraitin işğal olunmuş torpaqlarımızda, Qarabağda yaradılmasını səbirsizliklə gözləyirlər.

**Kursant**
**Əli ABIYEV**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## “Dəniz kuboku” müsabiqəsinin iştirakçıları yoldaşlıq görüşlərində güclərini sınayıblar

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Bakıda keçirilən "Dəniz kuboku" müsabiqəsinin iştirakçıları voleybol və mini-futbol üzrə yoldaşlıq görüşlərində güclərini sınayıblar.

Voleybol üzrə görüşdə rusiyalı hərbi dənizçilərə 3-0 hesabı ilə qalib gələn komandamız, mini-futbol yarışında 2-3 hesabı ilə məğlub olub.

Qalib komandalara kuboklar, medallar, fəxri fərmanlar və hədiyyələr təqdim edilib.

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***1 sentyabr 2020-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 32 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Ayqepar, Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Hacallı, Əlibəyli, Ağdam və Koxanəbi kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Yusifcanlı, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdən birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçu A.Antoyan mülki şəxsi döydüyünə görə istintaqa cəlb edilib.

Hərbi qulluqçu komandirindən icazə alaraq Madagiz yaşayış məntəqəsinə gedib. Buradakı kafelərdən birində nahar edən hərbçi xeyli miqdarda spirtli içki qəbul edib. Sərxoş halda A.Antoyan kafedə çalışan qadına qarşı nalayiq sözlər işlədib və əxlaqsız hərəkətlərə yol verib. Nəticədə kafeni işlədən şəxslə hərbi qulluqçu arasında başlayan mübahisə sonda davaya çevrilib. Nəticədə A.Antoyan mülki şəxsi döyərək ona müxtəlif xəsarətlər yetirib.

Qadının və kafenin sahibinin şikayəti əsasında cinayət işi açılıb və erməni hərbçisi istintaqa cəlb edilib. Əgər şikayətçilər israr edərlərsə, A.Antoyanı 4 il müddətinə həbs gözləyir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdən birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən daha bir erməni hərbi qulluqçunun meyiti tapılıb.

Kəşfiyyat taborunun hərbi qulluqçusu Vartan İsraelyan naməlum şəraitdə ölüb.

Faktla bağlı cinayət işi açılıb, hərbi qulluqçunun ölüm səbəbləri araşdırılır.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdən birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən əsgər oynaqlarında problem olmasına və çətinliklə yeriməsinə baxmayaraq müalicəyə göndərilmir.

Hərbi qulluqçu Hrant Minasyanın oynaqlarında kəskin ağrılar olduğundan yerimməkdə çətinlik çəkir. Hərbi hissənin həkimi bildirib ki, oynaqlarındakı patologiya səbəbindən H.Minasyan hərəkət etdikcə onun "sümükləri yeyilir" ki, bu da onun ayaqlarında funksional pozuntuya səbəb olur.

Ermənistan ordusunun hərbi qulluqçusu H.Minasyanın təcili əməliyyat olunması tələb olunmasına baxmayaraq, hərbi hissə komandanlığı onun müalicəyə göndərilməsini gecikdirir.

Xəbəri verənin iddiasına görə Minasyanın valideynlərindən rüşvət tələb olunub, onların isə ödəməyə gücləri çatmadığından əsgərin hospitala göndərilməsi bilərəkdən gecikdirilir.

* * *

Tovuz istiqamətində gedən döyüşlərdə yaralanmış erməni hərbçilərin müalicəsinin ictimaiyyətdən gizli saxlanılmasına cəhd göstərilməsinə baxmayaraq, bu barədə məlumatlar yayılır.

Bəlli olub ki, döyüşlər zamanı Dağlıq Qarabağdan Tovuz istiqamətinə gətirilən bölmələrdən birində xidmət edən 3 nəfər erməni hərbi qulluqçu - 2000-ci il təvəllüdlü Sarkis Karamyan, ayağından yaralanan Onik T və qəlpə yarası almış 535-ci əlahiddə motoatıcı alayın "Mxo" ləqəbli zabiti tibb müəssisəsində müalicə olunurlar.

* * *

İşğal edilmiş Ağdərə yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin hərbi hissələrindən birinin əsgəri vəziyyəti pisləşdiyindən təcili yardım maşını ilə hərbi hospitala çatdırılıb.

Hərbi hospitalın işçisi Marine Hemaherunun bildirdiyinə görə, yüksək hərarət səbəbindən hərbi qulluqçu Sergey Hambarçumyanın halı pisləşib. Hərbi tibb maşını olmadığından məcbur qalıb mülki təcili tibbi yardım maşını çağıraraq əsgəri hospitala çatdırıblar. Müayinə zamanı hospitalın həkimlərinin qənaətinə görə komandanlığın səhlənkarlığı üzündən əsgər S.Hambarçumyan vaxtında tibb məntəqəsinə göndərilməyib. İkitərəfli pnevmaniya diaqnozu ilə hospitalın reanimasiya bölməsinə yerləşdirilən hərbi qulluqçunun vəziyyəti ağır olaraq qiymətləndirilir.

Erməni hərbçisi S.Hambarçumyanın COVID-19 testi də müsbət çıxıb. Hələlik əsgərin ailəsinə xəbər verilməyib.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

*Bu gün ölkəmiz təhlükəsizliyini və ərazi bütövlüyünü qorumaq, düşmənin təxribatının qarşısını almaq üçün müasir və qabaqcıl silahlarla komplektləşdirilmiş güclü orduya malikdir. Ordunun gücü onun sıralarında xidmət edənlərin peşəkarlığından asılıdır. Belə ki, hərbçilərimiz bilik və bacarıqlarının artırılması ilə yanaşı, fiziki cəhətdən də güclü, çevik və cəld olmalıdırlar. Bu səbəbdən bölmələrimizdə günün nizam qaydasına uyğun olaraq səhər və axşam fiziki hazırlıq məşğələləri keçirilir. Düşmənlə təmas xəttində yerləşən bölmələrimizdən birində şəxsi heyətin idmanla məşğul olmasının şahidi olduq. Hər biri idman alətlərində göstərilən elementləri mahircəsinə yerinə yetirirdi. Hərbçilərimizin arasında rəqabətin olması da gözümüzdən qaçmır.*

*Fiziki hazırlıq*

# Sağlam əsgər - sağlam düşüncə və güclü iradə...



- Şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyəsində fiziki hazırlıq da başlıca rol oynayır, - deyə zabit Rəşad Əliyev söhbətə başladı. - Hərbçi peşəsi şərəfli və çətin peşədir. Mütəmadi olaraq nəzəri biliklərini təkmilləşdirməli, taktiki sahədə təcrübi olaraq möhkəmləndirməlisən. Döyüş meydanında, təlimlərdə verilən tapşırıqları müvəffəqiyyətlə yerinə yetirən zaman fiziki gərginliyə və yüklənməyə məruz qalırsan. Bu cür yüklənmənin öhdəsindən isə yalnız fiziki cəhətdən güclü insan gələ bilər. Bu səbəbdən mütəmadi olaraq şəxsi heyətin fiziki hazırlığının artırılması istiqamətində işlər aparılır. Fiziki cəhətdən sağlam əsgər isə sağlam düşüncə və güclü iradə sahibidir. Həmçinin fiziki cəhətdən güclü hərbi qulluqçu qarşısına çıxan hər bir çətinliyə sinə gərməyi bacaran döyüşçü deməkdir.

Fiziki hazırlıq məşğələsinin başa çatmasından istifadə edərək, onlarla həmsöhbət oluruq. İlk olaraq müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elnur Paşayev dayısı Nicat Məmmədovun Qarabağ uğrunda Gədəbəy rayonu istiqamətində gedən döyüşlərdə şəhid olduğunu bildirdi: "Dayımın və Vətən uğrunda şəhid olan oğullarımızın qisasını alacağıma söz vermişəm. Məqsədimə çatmaq üçün fiziki cəhətdən möhkəm olmalı idim. Bu səbəbdən uşaq vaxtlarımdan idmanla məşğul olmağa başladım. İndi çətinlik çəkmədən bütün tapşırıqları yerinə yetirirəm. Bu gün Vətən keşikçilərinin sıralarında olmağımla fəxr edirəm. Torpaqlarımızı düşməndən azad etməyincə Vətənin müdafiəsində dayanacağam".

- Komandirlərimizin köməyi ilə fiziki hazırlıq məşğələlərində dözümlülüyümüzü, çevikliyimizi, cəldliyimizi inkişaf etdiririk, - deyə əsgər Fuad Allahverdiyev söhbətə başladı. - Hərbi xidmətdən öncə boksla məşğul olmuşam. Hər dəfə rinqə birincilik əldə etmək həvəsi ilə çıxırdım. Məqsədə nail olmaq yüksək fiziki hazırlıqdan və dözümlülükdən asılıdır. Yüksək fiziki hazırlıq mütəmadi keçirilən məşqlərin hesabına əldə olunur. Bu gün hər birimizin qarşısında yalnız bir amal - işğal altında olan torpaqlarımızı düşməndən azad etmək dayanır. Bunun üçün hər an döyüşə hazır olmalıyıq. İnanıram ki, düşmənə döyüş meydanında gücümüzü göstərə biləcəyimiz gün uzaqda deyil.

Əsgər Ferland Bədəlov bildirdi ki, hərbi hissədə mütəmadi olaraq fiziki hazırlıq yarışları keçirilir. "Ordu üzrə müxtəlif idman yarışlarında mən və silahdaşlarım iştirak etmişik. Yarışlarda qazanılan qələbə yuxarı komandanlığın üzərimizdə olan əziyyətinin bəhrəsidir. Bu gün biz fiziki cəhətdən güclüyüksə, təlimlərdən üzüağ çıxırıqsa, bu komandirlərimizin sayəsindədir. Savadlı və bacarıqlı komandirlərimizin sayəsində torpaqlarımızı işğaldan azad edəcəyik. Bunun üçün Ali Baş Komandanımızın döyüş əmrini gözləyirik".

Əsgərlərimizdən Anar Hüseynov, Zamin Kazımov, Elsəvər Namazov, Seymur Məmmədrzayev və Röyal Kərimov bildirdilər ki, hərbi hissədə idmanın müxtəlif növləri ilə məşğul olmaları üçün geniş şərait yaradılıb. Komandirlərin nəzarəti altında onlar müasir idman vasitələrindən, trenajorlardan, maneə zolaqlarından və digər vasitələrdən istifadə edirlər. Hər biri fiziki və mənəvi cəhətdən sağlam, Vətəninə və millətinə bağlı əsgər kimi formalaşıblar.

**Baş leytenant**
**Ruslan HƏSƏNZADƏ,**
**"Azərbaycan Ordusu",**
**foto**
**C.CƏFƏROVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# "Vityaz" S-350 zenit-raket kompleksi





Yeni nəsildən olan "Vityaz" S-350 orta məsafəli zenit-raket kompleksi Rusiyanın "Almaz-Antey" Konserni tərəfindən hazırlanıb. Kompleks aerodinamik və ballistik hədəfləri məhv etmək üçün təyin edilib. Raket kompleksinin bir qurğusu 12 ədəd zenit-raketləri ilə silahlanıb.

"Vityaz" zenit-raket kompleksi 2013-cü ilin avqustunda "MAKS-2013" aviasalonunda nümayiş etdirilib. 2018-ci ildə Kapustin Yar təlim meydançasında onun sınağı davam etdirilib. 2019-cu ilin aprelində isə "Vityaz" S-350 zenit-raket sisteminin dövlət sınağı başa çatıb. Həmin ilin dekabrında müəssisə tərəfindən Müdafiə Nazirliyinə təqdim edilib. 2020-ci ilin fevralında poliqonda təqdimedilmə zamanı kompleksin şərti hava düşməninin aşkar edilməsi və məhv edilməsi üzrə məşqi həyata keçirilib.

"Vityaz" S-350 zenit-raket kompleksi təkərli BAZ şassisində yerləşdirilmiş 50P6A özüyeriyən buraxıcı qurğudan, çoxfunksiyalı radiolokasiya sistemindən, döyüşü idarəetmə məntəqəsindən ibarətdir.

Eyni vaxtda maksimal olaraq vurulan aerodinamik hədəfin sayı 16, ballistik hədəfin isə 12-dir. Eyni vaxtda tuşlanan raketlərin sayı isə 32 ədəddir. Aerodinamik hədəflərin məhvetmə zonası uzaqlığa görə 1500-60000 m, hündürlüyə görə isə 10-30000 metrdir, ballistik raketlərin məhvetmə zonası uzaqlığa görə 1500-30000 metr, hündürlüyə görə 2000-25000 metr təşkil edir. Beş dəqiqə ərzində vasitələr marşdan döyüş hazırlığına gətirilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## "Qəbələ" yoxlama oyununda "Səbail"i minimal hesabla məğlub edib



Region təmsilçisi olan "Qəbələ" futbol klubu milli komandaların matçları ilə əlaqədar Azərbaycan Premyer Liqasında yaranan fasilə dövründə hazırlıqlarını davam etdirir.

Bakıda təşkil olunan hazırlıq çərçivəsində "Qəbələ" "Səbail" klubu ilə yoxlama oyununda qüvvəsini sınayıb.

Bakı Olimpiya Stadionunun ehtiyat meydanında keçirilən görüş "Qəbələ"nin qələbəsi ilə başa çatıb - 1:0.

Qarşılaşmada yeganə qolu Nikolas Raysel vurub. O, 75-ci dəqiqədə onbirmetrlik cərimə zərbəsində fərqlənib.

Qeyd edək ki, Azərbaycan çempionatının birinci turunda "Qəbələ" doğma meydanda "Zirə" ilə heç-heç edib (1:1), "Səbail" isə səfərdə "Neftçi"yə uduzub (2:1).

## Azərbaycan triatlonçuları nüfuzlu "Triatman İron" turnirində uğurla çıxış ediblər




Triatlon üzrə Azərbaycan millisi koronavirus pandemiyası ilə bağlı məcburi fasilədən sonra növbəti yarışda gücünü sınayıb.

Azərbaycan Triatlon Federasiyasından bildiriblər ki, yığmamızın üzvləri Rostislav Pevtsov və Kseniya Levkovskaya Kiyevdə keçirilən nüfuzlu "Triatman İron" turnirində çıxış ediblər.

Təmsilçilərimiz 1,9 kilometr üzgüçülük, 90 kilometr velosiqment və 21,1 kilometr qaçışın daxil edildiyi bütün məsafəni uğurla keçiblər. Bütün rəqiblərini qabaqlayan Azərbaycan təmsilçiləri yarışın qalibi olublar.

Qeyd edək ki, bir müddət əvvəl R.Pevtsov açıq Ukrayna çempionatında qızıl medal qazanmışdı.

## Azərbaycan şahmatçıları monqolustanlı rəqiblərinə qalib gəliblər



Avqustun 31-də Azərbaycan və Monqolustan şahmatçıları arasında yoldaşlıq görüşü keçirilib.

Heyətində Xəzər Babazadə, Atilla Eynullayev, Vüqar Manafov, Altay Eynullayev, Şiroğlan Talıbov, Süleyman Süleymanlı, Fərid Orucov, Cahandar Azadəliyev, Ayan Allahverdiyeva, Mələk İsmayılın yer aldığı Azərbaycan komandası 246:177 hesabı ilə Monqolustan şahmatçılarını məğlub edib.

Blits üzrə keçirilən turnirdə 16 yaşadək şahmatçılar iştirak ediblər. Yarış "Lichess.org" platforması vasitəsilə keçirilib.

## Ukraynada yaşayan soydaşımız sərbəst güləş üzrə ölkə çempionu olub



Ukraynada yaşayan soydaşımız Emil Qaibov Lvovda keçirilən sərbəst güləş üzrə ölkə çempionatının qızıl medalını qazanıb.

70 kiloqram çəki dərəcəsində çıxış edən soydaşımız bütün rəqiblərinə inamla qalib gəlib.

E.Qaibov Ukrayna millisinin heyətində dekabrın 4-10-da keçiriləcək sərbəst güləş üzrə dünya çempionatına vəsiqəni təmin edib. Ukrayna vətəndaşı olan E.Qaibov 8 yaşından güləşlə məşğul olur.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 517
Nüsxə 3960